# Konflikt probleminə psixoanalitik yanaşma

**Yaqut Ağasiyeva**
*ADPU-nun müəllimi*

**Rəyçilər:** psixol.ü.f.d., dos. M. İsmayılova,
dos. Q. Rəhimova

**Açar sözlər:** konflikt, psixoanaliz, rəqabət, nevroz, psixososial mərhələlər, müdafiə mexanizmləri, sıxışdırma

**Ключевые слова:** конфликт, психоанализ, соперничество, невроз, психосоциальные стадии, защитные механизмы, вытеснение

**Key words:** conflict, psychoanalysis, competition, neurosis, psychosocial stages, defensible mechanisms, pressing

Konflikt problemi istənilən cəmiyyət üçün həmişə aktualdır. İctimai sivilizasiyaların hər bir inkişaf mərhələsində konflikt təkcə tarixə təsir göstərməklə qalmayıb, eyni zamanda şəxsiyyətlərarası münasibətlər kontekstində həlledici amil olmuşdur. Müharibələr, inqilablar, hökmranlıq, mülkiyyət uğrunda mübarizə, şəxsiyyətlərarası və qruplararası konfliktlər, qətllər, məişət konfliktləri müasir sivilizasiyada da mövcuddur.

Bizim hər birimizdə konflikt haqqında güzəran biliklər səviyyəsində bu və ya digər məlumatlar vardır. Amma elmi şəkildə ifadə etsək, konflikt iki tərəfin, yəni fəaliyyətləri ziddiyyətin aradan qaldırılmasına yönəlmiş fəal subyektlərin qarşıdurmasıdır. İnsanlar bəzən konflikti birmənalı şəkildə destruktiv qiymətləndirdikləri üçün onun yaradıcı prinsipini dərk etməyərək kənarlaşdırırlar. Lakin son illərdə konflikt probleminin bir çox elmlərin tədqiqat obyektinə çevrilməsi məsələyə birmənalı yanaşmanın qarşısını almışdır.

Konflikt insanın psixi həyatına əsaslı təsir göstərən hadisələrdən biri kimi psixologiya elminin fundamental problemi olan psixoloji sağlamlıq (əmin-amanlıq) problemi ilə birbaşa bağlıdır, bu baxımdan psixologiyada hər bir nəzəriyyə çərçivəsində konfliktə özünəməxsus yanaşma tərzi formalaşmışdır. Bu nəzəriyyələr arasında ilkin olaraq formalaşmış nəzəri istiqamətlərdən biri də psixoanalitik (psixodinamik) yanaşmadır.

Psixoanalitik nəzəriyyədə konflikt intrapsixi fenomen kimi yanaşılır və şəxsiyyət müxtəlif təbəqələr arasındakı ziddiyyət və konfliktlər əsasında öyrənilir. S.Xoll və Q.Lindsey qeyd edir ki, bütün şəxsiyyət nəzəriyyəçiləri şəxsiyyətdə konfliktə girə biləcək bir-birinə zidd meyllərin olmasını söyləyirlər [3, s.44]. Bunu Z.Xell və D.Ziqler də təkrarlayır: psixodinamik istiqamətin mahiyyəti ondadır ki, şəxsiyyət sonsuz konfliktdə olan proseslərin dinamik quruluşudur [4, s. 106].

Psixoanalitik istiqamətin banisi Z.Freyd psixikanı uyğunlaşmayan instinkt, düşüncə və şüur arasında mübarizə sahəsi kimi xarakterizə etmişdir. Bu mənada "psixodinamik" termini də şəxsiyyətin müxtəlif sahələri arasında sonsuz mübarizəni ifadə edir [4, s.105]. Freydə görə, insan ətrafdakılarla və bütövlükdə dünya ilə daimi daxili və xarici konflikt vəziyyətindədir. "Psixoanalizdə konflikt bir-birinə zidd prinsip, həvəs, ambivalent meyllərin başlanğıc və daimi formasıdır və burada insan təbiətinin ziddiyyəti əks olunur". (Qrişina N.V.) Aydın məsələdir ki, insanın yaşaya biləcəyi bütün mümkün konfliktlər içərisində psixoanalitiklər üçün mühüm olanı daxili və ya "psixoloji" konfliktdir. Və o da insanın ruhi həyatının meylləri, arzuları, psixi sistemləri və şəxsiyyətin müxtəlif sahələrinin fasiləsiz toqquşması ilə

xarakterizə olunan daimi elementidir. konflikttlər - fərdin daxili həyatının bir hissəsidir və onların yaranması təbii ki inkişafa mane olur.

Həzz prinsipinə əsaslanan insan xarici məhdudiyyətlərə, o cümlədən əxlaqi və sosial normaların mövcudluğuna görə öz arzularının həyata keçirilməsindən qismən imtina etməlidir. Bu da psixoloji konflikt in yaranmasına gətirib çıxarır, lakin psixoanaliz nöqteyi-nəzərindən bu konflikt normal həllini tapa bilər: əxlaqi baxımdan qəbul olunan yollarla bu həzzə nail olmaq imkanı da mövcuddur. Sıxışdırılmadan fərqli olaraq sublimasiyanın buna uyğun nümunəsi bədii və elmi yaradıcılıqdır. Cəmiyyətin tələblərinə uymayan arzuların dərhal ödənilməsində xaricdən məcburi imtinaya daxili məhdudiyyət də qoşulduqda patogen konfliktlər yaranır və bu, insanda müxtəlif növ psixi pozuntulara gətirib çıxarır. Z. Freyd patogen konfliktə misal olaraq, ”Mən”in meylləri ilə cinsi meyllər arasındakı konflikti göstərmişdir. Onun fikrincə, nevrozun yaranmasının səbəbi cinsi meyllər deyil, Mən (şüur) və ya Fövqəl-Mən (vicdan) və seksuallıq arasında yaşanan patogen konfliktlərdir.

Cinsi arzuların sıxışdırılması insanın son nəticədə öhdəsindən gələ bilmədiyi daxili konfliktin həqiqi yaranma səbəblərini dərk etməyə imkan vermir. İnsanın ümumən psixi həyatında konfliktin öyrənilməsinin əhəmiyyəti ondadır ki, ”dərk edilməyən”, qəbul olunmayan libido və aqressiv impulsların doğurduğu konflikt fərdin həyatının daxili tərəfini əhatə edir. İnsana xas olan bu konfliktlilik onun uşaqlıq təcrübəsindən, valideynlərlə münasibətindən qazanılmış olur. Belə ki, uşaqlıqda həllini tapmayan konfliktlər daha yetkin yaşda patoloji davranış üçün potensial rolu oynayır. Freydin baxışlarına münasibətini bildirərək L.S.Vıqotski yazır: ”İnsan sanki özünün erkən uşaqlığının əsiridir, bütün ömrü boyu o, həyatının ilk aylarında yaranmış konfliktləri yaşayır və həll edir. Belə çıxır ki, insanın davranışı xarici şəraitdən daha çox onun şəxsi - daxili xüsusiyyətləri ilə şərtlənir, dərk olunmayan psixoloji konfliktlər insanın davranışını idarə edir”. Buna görə də terapevtik təsirin də məqsədi şüurdan sıxışdırılaraq çıxarılmış konfliktlərin mənbəyini aydınlaşdırmaq, insanı daxili konfliktinin səbəblərini dərk etməyə və onları özünün dərk olunmayan meyllərinə şüurlu münasibət səviyyəsində həll etməyə istiqamətləndirməkdir.

Bu istiqamətin digər bir nümayəndəsi Karen Xorni də daxili konfliktlər problemi ilə maraqlanmış və “Daxili konfliktlərimiz”, ”Müasir dövrün nevrotik şəxsiyyəti”, ”Analıq konfliktləri” kimi tədqiqatlarını bu problemə həsr etmişdir. K.Xorniyə görə, müasir cəmiyyət iqtisadi baxımdan fərdi rəqabət prinsipinə əsaslanır. Hər bir insan eyni qrupun digər nümayəndələri ilə mübarizə aparmalı, onlar üzərində üstünlük qazanmalı və onları “kənarlaşdırmalıdır.” Birinin üstünlüyü digərinin uğursuzluğu deməkdir. Belə vəziyyətin psixoloji nəticəsi insanlar arasında qatı düşmənçilik, gərginlikdir. Hər bir insan istənilən başqa insan üçün real və ya potensial rəqibdir. Rəqabət sosial münasibətlərdə hökmran olan amillərdəndir. Rəqabət kişilərlə kişilər, qadınlarla qadınlar, kişilərlə qadınlar arasında münasibətlərdə təzahür edir və səbəbdən asılı olmayaraq münasibətləri korlayır. Rəqabət kişilər və qadınlar arasında yalnız tərəfdaş seçimində deyil, həm də onlardan hansınınsa üstünlüyü uğrunda mübarizədə (gender probleminin qabardılması fonunda) özünü göstərir [5, s. 261].

Freyd hesab edirdi ki, nevroz mahiyyət etibarilə instinktiv meyl ilə sosial tələblər və ya onların Fövqəl - Məndə necə təqdim olunmaları arasında konfliktin nəticəsidir. O, insanın meyllər və sosial təzyiq arasındakı konfliktin istənilən nevrozun yaranması üçün vacib şərt olduğunu qəbul etsə də, Xorninin fikrincə, bu şərt kifayət deyil. İnsanın arzuları və sosial tələblər arasındakı toqquşma mütləq olaraq nevroza yox, həyatda müəyyən məhdudiyyətlərin olmasına, arzuların sadə şəkildə sıxışdırılmasına, ən ümumi formada isə həqiqi iztiraba gətirib

çıxarır. Nevroz yalnız o zaman yaranır ki, bu konflikt narahatlıq, həyəcan doğursun və bu narahatlığı azaltmaq cəhdləri bir-birilə üst-üstə düşməyən müdafiə meyllərini işə salsın. Nevrotik insan nəinki yalnız özündən və öz arzularından baş çıxarmaq qabiliyyətini itirir, həm də özünün daxili problemlərini həll etməyə belə qadir olmur. Xorniyə görə, son nəticədə bunlar konfliktin mənbəyi kimi çıxış edir. Nevrotik meylli insan eyni vaxtda bir-birinə uyğun olmayan bir neçə istiqamətdə fəaliyyət göstərir: onda həm "məndən başqa heç kim" kimi üstünlüyə aqressiv meyl var, eyni zamanda həm də insanlarla yaxşı münasibət qurmaq arzusu mövcuddur. Buna misal kimi nevroz zamanı konfliktin əsasını təşkil edən eqoistlik və sevginin bir insanda olmasını nümunə gətirə bilərik. Bu vəziyyəti belə də qeyd edə bilərik: istənilən insanda "insanlara doğru", "insanlardan uzaqlaşma", "insanlara qarşı" kimi sosial yönümləri ola bilər və bunlar şəraitdən asılı olaraq təzahür edə bilər. Biz insanlarla əməkdaşlıq edə, həm onlardan kənar gəzə, həm də onlarla mübarizə apara bilərik. Nevrotikdə bunlar bir-birinə uyuşmadığından biri digərini ötərək üstünlük təşkil edir. Bu yolla şəxsiyyətlərarası konfliktlər Xorninin "insanlara qarşı" adlandırdığı və insanın özünə, başqalarına və müəyyən həyat fəlsəfəsinə münasibətdə təməl yönəlişə çevrilən şəxsiyyətdaxili meyllərin ifadəsi olur. Xorni belə insanları xarakterizə edərək yazır: "Nevrotiklər başqalarına qarşı nəsə etdikdə, özünə qarşı düşmənçilik olduğunu hesab edir və şüurlu, ya şüursuz şəkildə onlarla mübarizə etmək qərarına gəlir. Ona qarşı başqalarının hisslərinə inanmır. Bütün mümkün yol və vasitələrlə başqaları ilə əksinə rəftar edir. O həm şəxsi müdafiə, həm də qisas məqsədilə güclü olmaq və insanlara zərər yetirmək istəyir". Burada söhbət yalnız hansısa ekstremal və ya xüsusi vəziyyətlərdən getmir. Belə şəxsiyyət meyli adi vəziyyətlərdə gündəlik ünsiyyətdə ən bəsit şəkildə özünü göstərir. Məsələn, yarıboş avtobusa minəndə insanlar bir-birini itələyərək keçməyə çalışırlar, qorxurlar ki onlara yer çatmaz. Hətta xeyli boş yer bəzi insanları başqalarını üstələmək meylindən çəkindirə bilmir. Eynilə, məsələn, bəzi yerlərdə növbəyə duranda elə insanlar olur ki, sizinlə eyni vaxtda gəlsələr də, sübut etməyə çalışırlar ki, onlar birinci gəliblər, siz isə onların ardınca dayanmalısınız. Aydındır, insanlar nə üçün belə edirlər - qalib gəlmək, üstün olmaq arzusu olduğu üçün. Onun fikrincə, əgər o güzəştə gedirsə, deməki ikincidir, uduzursa, "normal deyil". Şəxsiyyətin belə üstünlük meyli onun ətrafdakı insanlarla münasibətinin xarakterini müəyyən edir, onlar üzərində hökmranlıq, onlardan öz məqsədləri üçün istifadə etmək meylini doğurur.

Psixodinamik istiqamətin başqa bir nümayəndəsi Karl Qustav Yunq konfliktlərlə bağlı düşüncələrini "Uşaq ruhunun konfliktləri" adlı əsərində ümumiləşdirmişdir. Burada K.Yunq uşağın daxili aləmində - ruhunda yaranan ziddiyyətlər, onun davranışındakı çətinliklər və s. məsələləri tədqiq etmişdir. Əsərdə irəli sürülən əsas mövqe ondan ibarətdir ki, bir motiv kimi seksual maraq uşaq təfəkkürünün formalaşmasında kifayət qədər əhəmiyyətli rol oynayır. Seksual maraq birbaşa seksual məqsədə yox, təfəkkürün inkişafına xidmət edir. Əks halda konflikt intellektual dərketmə vasitəsi ilə deyil, seksual məqsədə nail olmaqla öz həllini tapardı. Lakin konfliktlər həll edilmədikdə uşaq seksuallığının özəyi birbaşa seksuallığa - onanizmə gətirib çıxarır [5, s. 88].

Konfliktə münasibətdə Freydin mövqeyindən kəskin fərqlənən nəzəriyyə E.Eriksona məxsusdur. Bildiyimiz kimi, psixoanalizdə destruktiv olan ziddiyyət və konfliktlərə malik insan haqqında bədbin təsəvvürlər vardır. Erikson isə buna zidd fikir irəli sürərək, konstruktiv mövqeni qabartmışdır: "Hər bir şəxsi və ya sosial böhran fərdi şəxsi inkişafa və həyatda maneələri aradan qaldırmağa səsləyən özünəməxsus çağırışdır. İnsanın mühüm həyati problemlərin öhdəsindən necə gəldiyini bilmək isə onun həyatını anlamaq üçün açardır" [4, s. 318]. Eriksona görə, insan həyatı boyu 8 psixososial mərhələdən keçir və bu mərhələlərin hər

birində böhranla üzləşir (cədvəl 1) [4, s. 220]. Bu böhran isə psixoloji yetkinliyin müəyyən səviyyəsinə nail olma və fərdə irəli sürülən sosial tələblər nəticəsində yaranan dönüş məqamlarıdır. Bu o deməkdir ki, hər bir yaş mərhələsində insan istər-istəməz böhran vəziyyətinə düşür. Böhranın müvəffəqiyyətli həlli isə şəxsiyyətin inkişafı və sonrakı mərhələlərə daha asan adaptasiya olması üçün zəmin yaradır. Eriksonun nəzəriyyəsində konfliktlər mühüm rol oynasa da, onlar "qəza və təhlükəni" bildirmir. Ona görə konflikt həm müsbət, həm də mənfi komponentləri özündə birləşdirir. Elə bu yanaşma da konfliktə müasir münasibətə uyğundur.

*Cədvəl 1. Eriksona görə psixososial inkişafın 8 mərhələsi*

| **Mərhələlər** | **Yaş** | **Psixososial böhran** | **Güclü tərəf** |
|---|---|---|---|
| 1.Çağalıq dövrü-(oral-sensor mərhələ) | doğulandan 1 yaşa qədər | Etimad-etimadsızlıq | Ümid |
| 2.Erkən uşaqlıq-(anal mərhələ) | 1-3yaş | Müstəqillik-utancaqlıq və şübhə | İradə |
| 3.Məktəbəqədər dövr (oyun mərhələsi) | 3-6 yaş | Təşəbbüskarlıq-günah | Məqsəd |
| 4.Kiçik məktəb dövrü (latent dövr) | 6-12 yaş | Zəhmətkeşlik-natamamlıq | Savad |
| 5.Yeniyetməlik | 12-19 yaş | Eqo-identiklik rol qarışması | Sədaqət |
| 6.Erkən yetkinlik | 20-25 yaş | İntimlik-təcridlik | Məhəbbət |
| 7.Orta yetkinlik | 26-64 yaş | Məhsuldarlıq-durğunluq | Qayğı |
| 8.Son yetkinlik | 65 yaş və ölənə qədər | Eqo-inteqrasiya-ümidsizlik | Müdriklik |

Psixoanalitik yanaşmanın ümumi cəhəti konflikti şəxsi struktur və meyllərin qarşılıqlı əlaqəsinin nəticəsi kimi nəzərdən keçirmələridir. Bu mənada konflikt intrapsixi mahiyyət daşıyır. Bir cəhəti də qeyd etmək lazımdır ki, konfliktli şərait zamanı müdafiə reaksiyalardan biri olan şüursuz qaçış psixoanalitik ənənələrdə daha yaxşı təsvir olunmuşdur. Psixikanın şüursuz psixi proseslərlə müdafiəsini təmin edən şəxsiyyətin müdafiə mexanizmlərinə klassik psixoanalizdə bunları aid edirlər: sublimasiya, əvəzetmə, sıxışdırma, reqressiya, proyeksiya, davranışın fiksasiyası. Anna Freyd bu siyahıya bir neçə müdafiə mexanizmləri əlavə etmişdir: təcridetmə (təhlükəni dərk etdikdə assosiativ əlaqələri kənarlaşdırmaq); güzəşt (xəstəlik impulslarının yalnız müəyyən bir hissəsinin reallaşmasını təmin edir); reallığı inkar etmək (təhlükə doğuran xarici amillərin mövcudluğunu rədd etmək) və s. İnsanın problemdən və onu həll etmə məcburiyyətindən şüursuz qaçış formalarından ən əsası sıxışdırmadır. Sıxışdırma-psixoanalizin əsas anlayışlarından biridir. Onun hesabına şüurlu Mən (Ego) üçün qəbul olunmaz olan yaşantılar - meyllər, impulslar, onların doğurduğu emosiya, xatirələr şüurdan "qovulur". Sıxışdırma şüurdan hansısa məlumatı şüursuzluğa ötürən və ya dərk olunmayan meylləri şüura keçməyə qoymayan mexanizmdir. Sıxışdırılanlar şüura qayıtmağa meyl edir, ona görə də Mən (Ego) sıxışdırılanı saxlamaq üçün güc sərf edir. Freydə görə, arzuolunmaz fikir, yaşantı və xatirələri şüurdan şüursuzluğa ötürən ilkin sıxışdırma və sıxışdırılanı şüursuzluqda saxlayan ikinci sıxışdırma var. Psixoanalizdə təsvir olunan və müasir praktik psixologiyada geniş istifadə edilən şəxsiyyətin müdafiə mexanizmlərindən biri kimi

rasionalizasiyanı qeyd etmək olar. Rasionalizasiya insanın həqiqi fikir və hisslərinin, fəaliyyət motivlərinin dərkinin sıxışdırılmasına, şəxsiyyət üçün davranışının daha qəbul olunan izahının formalaşmasını təmin edən müdafiə mexanizmidir; fərdin hətta irrasional olduqda belə öz davranış və ideyalarının rasional əsaslandırılması və izahına şüursuz meylidir. Psixoanalizdə nəinki psixikanın ayrı-ayrı müdafiə mexanizmləri, həm də "xəstəliyə qaçış" kimi "qaçışın" daha mürəkkəb davranış forması əks olunmuşdur. Freyd bu halı təmin olunmamış şəraitə reqressiv reaksiya üsulu kimi nəzərdən keçirirdi. Müasir psixologiya və psixiatriyada "xəstəliyə qaçışı" hansısa xəstəlik simptomlarının inkişafının köməyi ilə konfliktdən qaçmaq cəhdi kim dəyərləndirirlər. Adətən müşahidə olunan bir məqam var ki, insanlar psixoanalizdə deyildiyi kimi, özlərinin düşmənçilik və aqressivlik hisslərini və ya sadəcə etirazlarını gizlətmək üçün ya güzəştə gedir, ya da konfliktdən qaçırlar. Belə bir situasiyanı yaşayan insanın öz hisslərini necə ifadə etməsini nümunə gətiririk: "Hesab edirdim ki, mənə qarşı böyük haqsızlıq edirlər, lakin etirazımı bildirə bilmirdim. Son nəticədə mən uzun müddət həmin insanlara özümün haqlı olduğumu yuxularımda sübut etməyə çalışırdım". Göründüyü kimi, xarici konflikt həll olunmadıqda şəxsiyyətdaxili konfliktə çevrilir. Bu baxımdan konfliktli şəraitdə seçilən 5 reaksiya tiplərindən (rəqabət, əməkdaşlıq, güzəşt, qaçış, uyğunlaşma) ən məqbulu əməkdaşlıq qəbul olunmalıdır. Bu mənada qeyd edə bilərik ki, daxili aləmdə harmoniyanın mövcudluğu xarici aləmin harmonik qəbul olunmasından asılıdır.

**Məqalənin aktuallığı.** Məqalənin aktuallığı ondadır ki, psixoanalitik nəzəriyyədə konfliktə intrapsixi fenomen kimi yanaşılır və şəxsiyyət müxtəlif təbəqələr arasındakı ziddiyyət və konfliktlər əsasında öyrənilir.

**Məqalənin elmi yeniliyi.** Xarici konflikt həll olunmadıqda şəxsiyyətdaxili konfliktə çevrilir. Bu baxımdan konfliktli şəraitdə seçilən reaksiya tiplərindən (rəqabət, əməkdaşlıq, güzəşt, qaçış, uyğunlaşma) ən məqbulu əməkdaşlıq qəbul olunmalıdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Анцупов А.Я., Баклановский С.В. Конфликтология. СПб, 2005.
2. Анцупов А.Я., ШипиловА.И. Конфликтология. М, 2004.
3. Гришина Н.В. Психология конфликта. СПб, 2005.
4. Зиглер Д., Хьелл Л. Теории личности. СПб, 2005.
5. Психологияконфликта. Хрестоматия (сост.Гришина Н.В. СПб, 2001.

**Я. Агасиева**

## Психоаналитический подход к проблеме конфликта

## Резюме

В статье описано актуальность проблемы конфликта и раскрылось некоторые вопросы относящихся к этой понятия. А также показано то, что конфликт есть явление влияющая на психику человека. В статье про анализировалось различные подходы представителей психоанализа в отношение к проблеме конфликта, и показана цитаты

из работ ученых как З.Фрейд, К.Юнг, А.Адлер, К.Хорни и др. В статье показано, что конфликт просматривается как внутренний конфликт в рамках психоаналитического направления. По взгляду психоаналитиков конфликт есть результат непрерывное столкновение влечений, желаний, психических систем и различных отраслей личности. Это идея отражено в исследованиях Зигмунд Фрейда. В статье автор прикоснулся к проблеме соперничество одной из причин конфликта, которое отражался в работах Карен Хорне. И показано, что соперничество создает конфликтную ситуацию не только у невротиков, но и у здоровых людей. А также изложено амбиентные чувства, проявленные у невротических людей. После этого в статье исследовалось работы К.Юнга по проблеме детские конфликты. В первичных работах представителей психоанализа в основном изучалось деструктивная функция конфликта. А в позднейших исследованиях изучалось, и конструктивная функция конфликта и в статье это показано в примере теории Е.Ериксона. А потом в статье показано защитные механизмы от внутренних конфликтов.

**Y.Ağasiyeva**

## Psycho-analytical approach to the conflict problem

## Summary

In the article commented urgency of the conflict problem, number of problems surrounded this concept have been explained. Then have been marked that, the conflict is an important event influencing to the human psychology. There have been analyzed different approaches of the psycho-analysis representatives to the conflict problem in the article. Quotations have been brought from the works of the scientists as S.Freud, A. Adler, K.Yung, K.Horni and others. There have been shown that the conflict is looked through as inside conflict in the frame of psycho-analytical direction in the article. According to the thought psycho-analytics the conflict is the result of the continuously colliding of inclinations, wishes, and psychical systems of the human and different areas of the personality. This idea has been reflected in the S.Freud's works. In the article author has touched to the problem of competition which has been reflected in the K.Horni's works and which is the cause of arise of the conflict. At the same time there have been shown that, the competition creates conflict conditions not only on neurotics, also on healthy peoples too. There have been commented ambient senses showing yourself in neurotic peoples. Then in the article have been analyzed K.Yung's work devoted to the problem of child conflicts. In the first works of the psycho-analysis representatives especially has been learnt destructive function of the conflict. But in the next investigations the constructive function of the conflict has been learnt and in the article it has been shown in the example of E.Ericson's theory. And at last in the article have been shown the defense mechanisms from inside conflicts.

**Redaksiyaya daxil olub:** 02.11.2018